

*Seyran*
*CAVADOV*

# *Nə yaxşı ki...*

**Səksən beş il yol**
**gəlirsən,**
**İlhamının qanadında**
**uça-uça.**
**Vətəninin havasını,**
**İstisini, soyuğunu,**
**Şirinini, acısını**
**uda-uda.**
**Dərəsini, təpəsini,**
**Həm dağını, həm düzünü,**
**Həm çayını, dənizini**
**quca-quca.**
**Seir yazdın bu illərdə**
**Ürəyinin ilhamıyla,**
**hökmüylə sən**
**neçə-neçə...**
**Hər biri də məna yüklü,**
**Sərbəst olsun, ya ki heca,**
**Qocalığa daş da atdın,**
**Sevgi dolu misraların**
**Nəğmə olub ürəklərə**
**dolunca.**
**Nə yaxşı ki,**
**Rəsul Rza körüyündən**
**çıxan şeirimizi,**
**Sən suvarırsan, Fikrət Qoca!**

ədalət.- 2020.- 29 avqust.- S.13